*Mənim stolüstü kitablarımdan biri belə adlanır:*

**«Bu dünyaya nə gətirdim...»**

***Bunun səbəbləri var. Hər şeydən əvvəl, ona görə ki, həmin kitabı hər dəfə vərəqləyəndə müasir Azərbaycan ziyalılarının görkəmli nümayəndələrindən bi-rinin - Hamlet Isaxanlının ömür yolunun bəzi səhifələrini bir daha izləyirəm.***

***Eyni zamanda, mən bu kitabda müasir Azdrbaycanımızın tanınmış elm və təhsil qurucusunun əməllərinin təcəssümünü görürəm.***

***Müasir dövrümüzün riyaziyyatçı aliminin uğurlarının sirlərinə bələd olu-ram. Çox maraqlı əsərləri ilə seçilən şair və tərcüməçinin bədii yaradıcılıq salnaməsini vərəqləyirəm.***

Müasir dövrdə humanitar və sosial elmlər üzrə bacarıqlı tədqiqatçmm araşdırmalarma nəzər salıram.

Tamnmış pedaqoq və naşirin uğurlarının şahidi oluram.

Ən böyük səbəblərdən biri isə odur ki, bəhs etdiyim kitabm müəllifı mənim sevimli tələbəm və istedadlı həmkarım Knyaz Aslandır.

Və nəhayət, xatırladığım kitabm əsas leytmotivi məni həm qane edir, həm də sevin-dirir. Həmin üç abzaslıq məzmun isə bundan ibarətdir:

«Dünyada elə şəxsi)^yətlər var ki, onların bənzərsiz həyat və fəaliyyəti öz zənginliyinə görə saysız-hesabsız insanlarm ömür yolundan seçilir.

Fitri istedada malik olan, Tanrı vergisinə la-yiq görülən belə insanlar bir ömürdə sanki bir neçə ömür yaşayır, məşğul olduqlan bütün sa-hələrdə uğurlar qazanır, özündən sonra gələn nəsillər üçün örnəyə çevrilir və qədirbilən in-sanların qəlbində özlərinə mənəvi abidə ucalt-mağı bacarır.

Öz fəaliyyəti boyunca qazandığı elmi nailiyyətləri, maarifçiliyi və bədii yaradıcılı-ğı, humanist insani keyfıyyətləri, tükənməz qurub-yaratmaq eşqi, sözü, əməli və ziyalılı-ğı ilə geniş ictimaiyyətin dərin hörmət və «məhəbbətini qazanmış belə nadir şəxsiy-yətlərdən biri professor Hamlet İsaxanlıdır».

Fikirləşirəm ki, bu cür dəqiq, obyektiv və sərrast cizgilərə, əməllərə, əqidəyə, uğurla-ra malik alimin, pedaqoqun, elm təşkilatçısı-nm, yaradıcı insanın bədii və yazılı port-retinə daha nələri əlavə etmək olar?!

Elə bu məqamda Hamlet müəllimin son illərdə elm, təhsil, naşirlik, xeyriyyəçilik, bədii yaradıcılıq sahəsində qazandığı uğurlar yadıma düşür. Bu uğurlar isə çoxdur...

Dünyanm ən nüfuzlu və tanmmış elm və təhsil ocaqlarmm kürsülərindən səsi-sorağı gələn, Avropanın və Amerikanm məşhur və tanmmış elm və təhsil qurumlarmm fəxri üzvü kimi böyük nüfuz qazanan, bir vaxtlar (1990-1991-ci illər) respublikamızda ilk ingilisdilli universiteti yaradan və ölkəmizdə təhsil sahəsində müasir və keyfıyyətli islahat-lar keçirən, əsərləri dünyanm bir sıra xalqlan-nm dillərində işıq üzü görən professor Hamlet İsaxanlının son illərdə elm, təhsil və bədii ya-radıcılıq sahələrində qazandığı uğurları bir yazıda sadalamaq hoqiqətən mümkün deyil. Amma çox vacibdir, lazımdır...

Çünki görüb-götürmək heç vaxt gee deyil və harm üçün **faydalıdır.** Biz ziyahlann borcu isə cəmı\yotimizi. elmimizi, tohsilimizi, ədəbiyyatımızı, mədəniyyətimizi daima irəli aparmaq, inkişaf etdirmək istiqamətində yoralmadan ça-lışmaqdan, cəhd göstərməkdən ibarətdir. Bax, elə bu məqamlarda

çoxumuzun Hamlet müəl-limdən öyrənməyə, görüb-götürməyə kifayət qədər qiymətli nümunələr - cəhətlər, xüsusiy-yətlər var. Təbiidir ki, biz ilk növbədə Hamlet müəllim kimi ziyalılann əməllərinə, uğurlanna layiqincə qiymət verməli, həm də öz növbəmiz-də biz də bu istiqamətlərdə bacardığımızı əsir-gəməməliyik. Onda elmimiz də, təhsilimiz də, ədəbiyyatımız da, mədəniyyətimiz də mütləq yeni-yeni uğurlar, təkcə uğurlar yox, çox şeylər qazanar, inkişaf edər və zənginləşər. Bunu ha-ınımız bilməli, hamımız bacarmalıyıq.

***Əgər biz ziyalıyıqsa!***
***Əgər biz vətənpərvəriksə!***
***Əgər biz Azərbaycanımızı dünyada tanıtdırmaq istəyiriksə!***
***Və nəhayət, əgər biz əsl ziyalı qədrini bilib, ona qiymət verməyi bacarırıqsa!!!***

**Vaqif Arzumanli,**
*Azərbaycan MEA Nizami adına Ədəbiyyat* **Institutunun** *«Xarici ölkəJər ədəbiyyatı və ədəbi əlaqələr» şöbəsinin miidiri, filologiya elmləri doktoru, professor*